# Murovdan bir az bəri...



## *Söhbət son illərdə Goranboyda əldə edilmiş böyük uğurlardan, dinamik inkişafdan, bir də insan amilindən gedir*

❐ ***Goranboya yolumuz İlaxır çərşənbədən sonrakı günlərdə düşmüşdü. Babaların min illərdən gələn inancı həmişə olduğu kimi, bu il də doğru çıxır. Gəncəbasar çöllərində torpaq artıq oyanmış, onun hikmətindən güc alan insanları da od-ocaq başından çölə-bayıra çıxartmışdır. Yollar boyu sıralanan taxıl zəmiləri, xalqın dediyi kimi, yeddi ayda bir qarış qalsa da, havanın qızmağı, suların çağlamağı, torpağın oyanmağı ilə, sanki, bir ayda yeddi qarışlıq sıçrayışa qanadlanıb.***

Ölkənin iri aqrar bölgələrindən olan Goranboy rayonu son illərdəki dinamik inkişafın yaratdığı əsaslar üzərində daha bir uğurlu ilin hesabını açmışdır. Fevralda keçirilən ümumrayon müşavirəsində ötən ilin sosial-iqtisadi inkişafına yekun vurulmuş, yeni hədəflər konkretləşdirilmiş, xüsusən regional inkişaf proqramında nəzərdə tutulan növbəti müddəaların, Prezident İlham Əliyevin tapşırıqlarından irəli gələn vəzifələrin uğurla gerçəkləşdirilməsi üçün fəaliyyət planı təsdiq olunmuşdur.



Rayona budəfəki səfərimizdə də Goranboyun son illərdə əldə etdiyi nailiyyətlər, bu ilin önəmli vəzifələri ilə bağlı ətraflı jurnalist araşdırması apardıq.

İlk müsahibimiz Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Nizaməddin Quliyev ötən ilin sosial-iqtisadi uğurlarını yığcam şərh etdi, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən regional inkişaf proqramının və digər önəmli layihələrin Goranboy rayonunda da hərtərəfli inkişafa güclü təkan verdiyini vurğuladı.

Rayon rəhbəri bildirdi ki, ötən il respublikamızın hər yerində olduğu kimi, Goranboy rayonunda da ciddi uğurlarla yadda qalmışdır. Rayonun makroiqtisadi göstəricilərində müsbət dinamika müşahidə olunmuşdur. Ümumdaxili məhsulun həcmi 163,8 milyon manat, sənaye məhsulunun həcmi 10 milyon 199 min manat, kənd təsərrüfatı məhsullarının həcmi 75 milyon manat təşkil etmişdir. Əhaliyə 55,8 milyon manatlıq ticarət, 3,36 milyon manatlıq nəqliyyat xidməti göstərilmişdir. Əsas kapitala yönəldilən investisiyaların həcmi 19 milyon 157,8 min manat olmuşdur.

Əhaliyə göstərilən rabitə xidmətinin həcmi getdikcə artır, müasir informasiya texnologiyalarının tətbiqi genişlənir. Ötən il 301 abonentə telefon xətti çəkilmişdir.

Pərakəndə əmtəə dövriyyəsi 5 faiz artmış, orta aylıq əmək haqqı 268 manata çatmışdır ki, bu da əvvəlki ilə nisbətən 7 faiz çoxdur. Əhalinin pul gəlirləri 257 milyon manat (əvvəlki illə müqayisədə 1,1 faiz çox) təşkil etmişdir.

Ötən il rayonda aqrar sahədə müsbət nəticələr əldə edilmişdir. Prezident İlham Əliyevin tapşırığına əsasən, Goranboy rayonunda da aqropark yaradılmasına başlanmışdır. Bu məqsədlə Goranboy və Samux rayonlarının inzibati ərazisində yerləşən "Bozdağ" massivindən 4,7 min hektar ərazi ayrılmış və bu sahə 8 min hektara çatdırılacaqdır. Burada taxıl, pambıq və digər texniki bitkilərin əkilməsi nəzərdə tutulmuşdur. Aqropark istifadəyə verildikdən sonra yüzlərlə yeni iş yeri açılacaq, məhsul istehsalının artmasına ciddi təkan verəcəkdir. Bu da xeyli sayda ailənin həyat şəraitinin yaxşılaşdırılması deməkdir.

Şəmkir kanalının rayon ərazisindən keçən ikinci hissəsinin tikintisi sürətlə davam edir. İşlər başa çatdıqdan sonra rayonda 17 min hektar əkinə yararlı torpaqların su təminatı yaxşılaşacaqdır. Ötən il olduğu kimi, bu il də rayonda 6 hektarda tütün əkiləcəkdir. Həmçinin barama istehsalı məqsədilə 5,5 hektar sahədə 27 min ədəd tut tingi əkilmiş, 1,5 hektar sahədə tut toxumu səpilmiş, mövcud tut ağacları budanmışdır. Barama istehsalı olduqca gəlirli sahədir və növbəti illərdə bu sahənin inkişafına diqqət daha da artırılacaqdır.



Ötən il 93 biznes layihəsinin icrası üçün Sahibkarlığa Kömək Milli Fondu və kredit təşkilatları tərəfindən sahibkarlara 6,9 milyon manat kredit verilmiş, bu hesaba 375, digər sahələrdə isə 102 daimi, ümumilikdə isə 3914 yeni iş yeri yaradılmışdır. Bütün bu tədbirlərin nəticəsidir ki, ümumi məhsul buraxılışında qeyri-dövlət sektorunun xüsusi çəkisi ilbəil artır. 2016-cı ildə bu rəqəm 84,4 faiz təşkil etmişdir.

Rayonda tikinti-quruculuq və abadlıq işləri də davam etdirilmişdir. Kənd Təsərrüfatı İdarəsinin inzibati-laboratoriya binasının tikintisi, şəhər 3 saylı uşaq bağçasında bərpa-gücləndirmə və əsaslı təmir işləri başa çatdırılaraq istifadəyə verilmişdir. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin inzibati binasının tikintisi davam etdirilir. Şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün beş fərdi evin tikintisi aparılır.

Rayon rəhbəri daha sonra bildirdi ki, keçən il aprelin 2-dən 5-dək erməni hərbi birləşmələrinin atəşkəsi pozması nəticəsində düşmənlə təmas xəttində yerləşən Tap Qaraqoyunlu və Zeyvə kəndlərində fərdi evlərə, sosial-infrastruktur obyektlərinə ciddi ziyan dəymişdi. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın cəbhə bölgəsinə gəlişindən, bərpa işləri ilə bağlı həyata keçirilən operativ tədbirlərdən sonra qısa müddətdə işıq, qaz və içməli su xətlərinə dəymiş ziyan aradan qaldırılmışdır. Tap kənd tam orta məktəbində əsaslı təmir, bərpa işləri aparılmışdır.

Tap Qaraqoyunlu kəndinin əkin sahələrinin su təminatının yaxşılaşdırılması məqsədi ilə İncəçay üzərində nasos stansiyası inşa edilmiş, 460 metr müxtəlif diametrli boru xətti çəkilmişdir. Elektrik xətti çəkildikdən sonra əkin sahələrinə suvarma suyunun verilməsi təmin ediləcəkdir. Tap Qaraqoyunlu kəndində tamamilə dağıdılmış 4 ev, Zeyvə kəndində isə 1 ev yenidən tikilmişdir. Tap Qaraqoyunlu kəndində ziyan dəymiş 14 ev əsaslı təmir edilmişdir.



Hesabat sənədləri ilə tanışlıqdan, ayrı-ayrı kollektivlərdə apardığımız görüşlərdən öyrəndik ki, son illərdə rayon mərkəzində, qəsəbə və kəndlərdə bir sıra layihələrin icrası uğurla davam etdirilmişdir. Goranboy–Goran avtomobil yolunda 4 kilometr ikitərəfli yolun tikintisi başa çatmışdır. Yola asfalt örtük salınmış, 2 min 200 metr kabel çəkilmiş, işıqlandırma sistemi istismara verilmişdir. Goranboy şəhərinin S.Civəzadə küçəsində, Şəhidlər Abidə Kompleksindən N.Nərimanov küçəsinədək uzunluğu 150 metr hasarın 298 kvadratmetrlik hissəsi aqlay daşı ilə üzlənmişdir. 7 küçəyə, 2 yaşayış binasının həyətinə, xəstəxanadan Qarasüleymanlı kəndinə gedən yola 11 min 892 kvadratmetr asfalt örtük salınmışdır. Heydər Əliyev prospektində və V.Bayramov küçəsində yeni magistral qaz kəmərinin çəkilişi ilə bağlı dağıdılmış hissələr bərpa edilərək asfaltlanmışdır.

Son illərdə rayonda yol tikintisi ilə bağlı xeyli iş görülmüşdür. Ölkə Prezidentinin 27 iyul 2016-cı il tarixli sərəncamı ilə Goranboy yuxarı Ağcakənd avtomobil yolunun tikintisinin başa çatdırılması məqsədi ilə 2,2 milyon manat vəsait ayrılmışdır. Artıq 37,75 kilometrlik yolun 34 kilometrinə asfalt-beton örtük salınmışdır. Yolun qalan hissəsində az bir vaxtda işlər başa çatdırılacaqdır. Dəliməmmədli-Muzdurlar-Qırıqlı avtomobil yolunun tikintisi dövlət proqramına salınmış, yaxın günlərdə işə başlanacaqdır.

Son 6 ildə rayonun ümumtəhsil məktəblərinin maddi-texniki bazası xeyli möhkəmləndirilmişdir. 24 məktəb, 2 əlavə tədris korpusu inşa edilmiş, 10 məktəb isə əsaslı təmir edilmişdir. Hazırda rayonun ümumtəhsil məktəblərinin 85 faizinin maddi-texniki bazası müasir tələblərə cavab verir. 16 məktəbin tikintisinə, 7 məktəbin isə əsaslı təmirinə ehtiyac var. Cəbhə bölgəsində yerləşən Aşağı Ağcakənd qəsəbə, Zeyvə, Todan, Buzluq, Gürzallar kənd və Goranboy şəhər 1 saylı tam orta məktəblərin tikintisi ilə bağlı yuxarı təşkilatlar qarşısında məsələ qaldırılmışdır.

Regional Təhsil İdarəsi Yolpaq kənd tam və Qurbanzadə kənd ümumi orta məktəblərinin tikintisi, Sarov, Ağamalıoğlu, Muzdurlar, Səfikürd kənd, Qızılhacılı qəsəbə 1 saylı tam orta məktəblərin əsaslı təmiri üçün sənədləri Təhsil Nazirliyinə təqdim etmişdir. Artıq Qurbanzadə kənd ümumi orta məktəbində bərpa gücləndirmə işləri başa çatmış, Qızılhacılı qəsəbə 1 saylı, Səfikürd və Ağamalıoğlu kənd tam orta, Abbasqulular kənd ümumi orta məktəblərində əsaslı təmir işləri aparılmışdır.

Mərkəzi Xəstəxananın poliklinika şöbəsində və Nizami kənd həkim məntəqəsində əsaslı təmir işləri aparılmışdır. Prezident İlham Əliyevin 6 may 2016-cı il tarixli sərəncamı ilə Mərkəzi Xəstəxananın yeni binasının tikintisinə başlamaq üçün 1 milyon manat vəsait ayrılmışdır. Yaxın vaxtlarda tikintiyə başlanacaq.

Rayon mərkəzi ilə yanaşı, yaşayış məntəqələrində də abadlıq-quruculuq işləri davam etdirilir. Xüsusilə, yerli icmaların təşəbbüsü və qeyri-hökumət təşkilatlarının maliyyə dəstəyi ilə əhalini narahat edən yerli əhəmiyyətli problemlərin həlli ilə bağlı çoxsaylı layihələr həyata keçirilir. Son 4 ildə, ümumilikdə, İkinci Kənd İnvestisiya Layihəsinin dəstəyi ilə rayonda 44 layihə həyata keçirilmiş, 5 layihə icra, 4-ü sənədləşdirmə mərhələsindədir, 2-nin icrası ilə bağlı əməkdaşlıq planlaşdırılır. İcra olunan bu layihələrdən 26-sı yol təmiri, 13-ü icmanın abadlaşdırılması, 4-ü içməli su xəttinin çəkilməsi, 1-i isə uşaq bağçasının təmiri ilə bağlı olmuşdur. Ümumilikdə, 407 kilometr kəndarası yollar yenidən qurulmuş, 36,8 kilometr içməli su xətti çəkilmişdir.

Keçən il bu təşkilat Yeniyol kəndində 11 kilometr, Qaramusalı kəndində 15 kilometr, Goranlı və Xəsədərli kəndlərində 14 kilometr, Nadirkənd kəndində 13 kilometr, Kələk kəndində 17 kilometr kənddaxili, Boluslu-Məşədiqaralar-Eyvazlılar kəndlərini birləşdirən 11 kilometr kəndlərarası yollar yenidən qurulmuşdur. Bundan başqa, Hazırahmədli kəndində 5,5 kilometr yeni su xətti çəkilmiş, 9 bulaq tikilmiş, 3 yerdə 16 tonluq su çəni, 25 yerdə kran qoyulmuşdur. Yenikənd, Qarasuçu, Balakürd, Əlirzalı, Yolqullar və Rəhimli kəndlərində qəbiristanlıqların ətrafına hasar çəkilmiş, abadlıq işləri aparılmışdır. Qarasuçu, Kələk, Rəhimli, Balakürd və Yolqullar kəndlərində avtobus dayanacaqları quraşdırılmışdır.

Şərq-Qərb İdarəetmə İnstitutunun rayonda həyata keçirdiyi SEDA layihəsi çərçivəsində yerli icma ilə birlikdə ötən il Qaradağlı kənd tam orta məktəbində yeni istilik sistemi quraşdırılmışdır. Goranlı kəndində tibb məntəqəsi və elektron kitabxana, Əzizbəyov kəndində həkim məntəqəsi tikilmişdir. Bu təşkilatın maliyyə dəstəyi ilə Fəxralı kəndində 12 kilometr içməli su xəttinin və 80 bulağın tikintisi layihəsinin icrasına başlanılmış, artıq 10 kilometr su xətti çəkilmiş, 40 bulaq tikilmişdir. İş davam edir.



Rayon əhalisinin elektrik enerjisi, təbii qaz və su təchizatını yaxşılaşdırmaq üçün də son illər məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Hazırda Goranboy və Dəliməmmədli şəhərlərində, Fəxralı, Alpoud, Qurbanzadə və Muzdurlar kəndlərində elektrik təsərrüfatı SİB kabellə yenidən qurulur. Ötən il kəndlərin qazlaşdırılması işi davam etdirilmişdir. 7 yaşayış məntəqəsi qazlaşdırılmış, 1392 abonent təbii qazla təmin olunmuşdur. Ümumilikdə, qaz abonentlərinin sayı 21 min 333-ə çatmışdır.

Hazırda Yolpaq, Səmədabad, Yəhərçi Qazaxlar, Sarov, Goranlı kəndlərində son tamamlama işləri aparılır. İşlər başa çatdırıldıqdan sonra rayon üzrə qazlaşma 94 faizə çatacaqdır. Su təchizatı da son illər xeyli yaxşılaşdırılmışdır. İndi rayon mərkəzi və Murov-Goranboy su kəməri boyunca 18 yaşayış məntəqəsi ekoloji cəhətdən təmiz su ilə təmin olunur.




Rayonda aztəminatlı ailələr üçün sosial mənzillərin tikintisi layihəsinin icrasına hazırlıq işləri görülür. Artıq 108 ailəni mənzillə təmin etmək məqsədilə 2 yaşayış binasının tikintisi üçün torpaq sahəsi ayrılmışdır. Layihənin icrası çox sayda yeni iş yerlərinin açılmasına və aztəminatlı ailələrin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına imkan yaradacaq. Ölkə Prezidentinin tapşırığına əsasən, açılmış ictimai iş yerlərində ötən il 509 aztəminatlı vətəndaş işlə təmin edilmişdir.

Əhalinin aztəminatlı təbəqəsinin sosial müdafiəsi tədbirləri daim diqqət mərkəzindədir. Bu sahədə daha çevik tədbirlər həyata keçirmək üçün bütün ölkədə olduğu kimi, rayonda da ötən il Rayon Sosial Müdafiə Mərkəzi Sosial Müdafiə Fondunun rayon şöbəsi ilə birləşdirilmişdir.

Ölkə Prezidentinin tapşırığına əsasən, ötən il açılmış ictimai iş yerlərində 509 nəfər aztəminatlı vətəndaş işlə təmin edilmişdir. O cümlədən 70 nəfər rayon Mənzil-Kommunal Təsərrüfatı İstehsalat Birliyində 11 ay işləməklə hər ay 116 manat, çoxmənzilli binaların təmirində isə 139 nəfər 5 ay işləməklə hər ay 200 manat əmək haqqı almışdır. Dövlət başçısının göstərişi ilə bu il də 524 yeni iş yeri açılmışdır. Burada işlə təmin edilənlərdən 76-sı Goranboy Mənzil-Kommunal Təsərrüfatı İstehsalat Birliyində, 150-si isə çoxmənzilli binaların təmirində çalışır.

Goranboyda ənənəvi olaraq pambıqçılıq, taxılçılıq, baramaçılıq, tütünçülük inkişaf etmiş, əhali bu sahələrdə zəngin təcrübə toplamışdır. Ötən il Prezident İlham Əliyevin ixracyönümlü məhsulların istehsalını artırmaq üçün dövlət dəstəyini gücləndirməsi rayonda yeni perspektivlər açmışdır.

Ölkə başçısının çağırışına cavab verən goranboylular keçən il 3,7 min ton pambıq hasil etmiş, bu il isə 10 min ton məhsul götürəcəklərinə əmindirlər. Taxılçılar isə istehsalı 52 min tondan 57 min tona çatdırmağı hədəfə alıb. Tütünçülər də istehsalı min ton artıraraq 7 min tona çatdırmağı nəzərdə tuturlar. Dövlət dəstəyindən güc alan fermerlər elə ilk ildə əkinləri genişləndirmiş, məhsuldarlığı yüksəltmişlər. Xanqərvənd kəndində Arifə Tapdıqova 42 hektarda 192 ton pambıq yetişdirmişdir, bu il isə 79 hektarda çiyid səpməyə hazırlaşır. Onun həmkəndlisi Mustafa Pirimov 28 hektardan 119 ton pambıq götürmüşdür, bu il isə əkinləri ikiqat artırmaq fikrindədir. Rayonun taxılçı fermerlərindən Rauf Həmidov ötən il 35 hektar zəmidə məhsuldarlığını 42 sentnerə, Elçin İsgəndərov 42 hektarda 35 sentnerə çatdırmışdır.

Ötən illərdə rayonda geniş yaşıllaşdırma işləri də aparılmışdır. İDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla xanım Əliyevanın təşəbbüsü ilə keçirilən "Ümumrespublika yaşıllaşdırma marafonu" çərçivəsində rayonda 105 min müxtəlif növ ağac əkilmişdir. Rayon mərkəzi ilə yanaşı, yaşayış məntəqələrinin və yol kənarlarının təmizliyi diqqət mərkəzində saxlanılmalıdır. Bununla bağlı vaxtaşırı iməciliklər keçirilir, işlər görülür.

Goranboylular builki Novruzu ilin bar-bərəkətinə böyük inam hissi ilə qeyd edirlər. Rayonda olarkən hər yerdə dövlətin bölgələrin inkişafına göstərdiyi qayğının ürəkaçan nümunələrinə rast gəldik. Biz də inanırıq ki, təbiətin təqvimində başlayan yeni il goranboylulara bol ruzi və firavanlıq gətirəcək.

***Ziyəddin SULTANOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***